# İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ







# İXRAC İCMALI

**2017-ci il / İyun №3**



www.iqtisadiislahat.org
info@ereforms.org



*“Artıq Azərbaycan iqtisadiyyatı mövcud vəziyyətə adaptasiya olundu, milli valyutamız sabitləşdi, qeyri-neft ixracımız artır”*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 May - Respublika Günü münasibətilə rəsmi qəbuldakı nitqindən**

*“Əlbəttə, bütün planlarımızı həyata keçirmək üçün biz güclü iqtisadiyyata malik olmalıyıq. Bu istiqamətdə də çox böyük addımlar atılır. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 37-ci yerdədir. Baxmayaraq ki, beynəlxalq maliyyə böhranı bizə də təsir etdi. Baxmayaraq ki, neftin qiymətinin aşağı düşməsi təbii ki, gəlirlərimizə mənfi təsir etdi. Artıq Azərbaycan iqtisadiyyatı mövcud vəziyyətə adaptasiya olundu, milli valyutamız sabitləşdi, qeyri-neft ixracımız artır. Dörd ayın iqtisadi göstəriciləri çox müsbətdir. Bizim valyuta ehtiyatlarımız, ticarət dövriyyəsi artıb. Ticarət dövriyyəsində müsbət saldo 1,2 milyard dollara çatıbdır. Ticarət dövriyyəsi 11 faiz, ixrac 41 faiz, qeyri-neft ixracı 22 faiz, kənd təsərrüfatı ixracı 44 faiz artmışdır.*

*Azərbaycanda bugünkü maliyyə və iqtisadi vəziyyət sabitdir, dayanıqlıdır. Bütün büdcə proqnozları yerinə yetirilir. Mən nə bu il, nə gələn il ölkə iqtisadiyyatı üçün heç bir problem görmürəm. Xüsusilə nəzərə alsaq ki, bizim valyuta ehtiyatlarımız da artır, bu il də artıbdır. Valyuta ehtiyatlarımız xarici borcdan 4-5 dəfə çoxdur. Ona görə, istənilən ölkə, bax, bu vəziyyəti özü üçün arzulaya bilər”.*

# MÜNDƏRİCAT

SƏHİFƏ 4
QEYRİ-NEFT İXRACI
Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

SƏHİFƏ 7
AZEXPORT.AZ
Azexport.az portalına may ayında 19 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olub

SƏHİFƏ 13
AZEXPORT.AZ
Azexport regional e-ticarət platformasına qoşuldu

SƏHİFƏ 14
"BİR PƏNCƏRƏ"
"Bir pəncərə" İxraca Dəstək Mərkəzinin təqdimatı oldu

SƏHİFƏ 16
"BİR PƏNCƏRƏ"
"Bir pəncərə" İxraca Dəstək Mərkəzində mənşə, keyfiyyət və fitosanitar sertifikatlarının verilməsi proseduru

*© İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyətinin məqsədləri ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqdır. Qurum analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzun müddətli dövr üçün proqnozlar hazırlayır, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin edir, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil edir.*

# Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

## May ayında 149 milyon ABŞ dolları məbləğində qeyri-neft məhsulu ixrac olunub

2017-ci ilin may ayında da qeyri-neft sektoru üzrə 445 şirkət tərəfindən 149 milyon ABŞ dolları həcmində ixrac əməliyyatları həyata keçirilib. 2017-ci ilin aprel ayı ilə müqayisədə may ayında ixracın həcmində 6 milyon dollarlıq artım müşahidə olunub. Bu isə Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracın artırılması ilə bağlı görülən tədbirlərin müsbət naticə verdiyinin göstəricisidir.

May ayı üzrə ixrac olunan əsas mallar pomidor, kartof, ağ şəkər, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, metanol (metil spirti), alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, vərəqlər, zolaqlar, qızıl, emal olunmamış aşqarlanmamış alüminium, qabığı təmizlənmiş meşə fındığı, pambıq lifi, üzüm çaxırı, mis filizləri və konsentratları, günəbaxan və ya saflor yağı, alma, soğan və s. dir. May ayında qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, Türkmənistan və İsveçrə qərarlaşmışdır. May ayında kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracında artım xüsusi ilə diqqətə çarpır.

Ardı səhifə 5-də




**May ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi**

## 2017-ci ilin 5 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 557 milyon ABŞ dolları təşkil edib

Əvvəli səhifə 4-də

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin 5 ayı ərzində isə qeyri-neft sektoru üzrə ixrac 557 milyon ABŞ dolları olmuşdur. Bu ixrac əməliyyatlarında 1021 şirkət iştirak etmişdir. 2017-ci ilin 5 ayı ərzində qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və Türkmənistan var. Onu da qeyd edək ki, bu ilin 5 ayı ərzində Rusiyaya 189 milyon ABŞ dollarından və Türkiyəyə 121 milyon ABŞ dollarından çox qeyri-neft sektoruna aid mal ixrac olunub. 5 aylıq məlumatların təhlilindən aydın olmuşdur ki, qeyri-neft sektoru üzrə ixracda ilk yeri tomat (80,3 milyon ABŞ dolları həcmində ixrac olub), ikinci yerdə isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (41,2 milyon ABŞ dolları həcmində ixrac olub) tutur. Daha bir kənd təsərrüfatı məhsulu- qabığı təmizlənmiş fındıq 30,5 milyon ABŞ dolları həcmindəki ixrac dəyəri ilə ilk üçlükdə yer alıb.

5 aylıq məlumatların təhlili göstərir ki, pambıq lifinin ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyər ifadəsində 8 dəfə, elektrik enerjisinin ixracı 4.2 dəfə, çay 1.5 dəfə, meyvə tərəvəz ixracı isə 34 faiz artmışdır.

2017-ci ilin may ayı ərzində ixrac olunan malların siyahısı və əsas ixrac ölkələri barəsində daha ətraflı məlumatla səhifə 6-da təqdim olunan infoqrammadan tanış ola bilərsiniz.

### 2017-ci ilin 5 ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi



## 2017-ci ilin may ayında əsas qeyri-neft ixrac mallarının siyahısı




***Qeyd:*** *May ayında infoqrammada yer alan məhsullardan əlavə qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

*Mənbə: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi*




## Azexport.az portalına may ayında 19 milyon ABŞ dolları məbləğində ixrac sifariş daxil olub

2017-ci ilin may ayında Azexport.az portalına daxil olan sifarişlərin ümumi dəyəri isə 19 milyon ABŞ dolları olmuşdur. May ayında ilk dəfə portala Slovakiya, Tayvan və Surinam Respublikasından sifarişlər daxil olub.

May ayında sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olur ki, qeyri-neft sektorunda istehsal edilən müxtəlif məhsullar - quru süd, meyvə tamlı süd, qırmızı yumurta, günəbaxan yağı, toyuq əti, armatur, yer kökü, şərab, kərə yağı, pambıq toxumu, alma, kosmetik vasitə, makaron, kərpic, nar, qaya duzu, avtomobil diaqnostika aparatı , çay, yataq dəsti, ipək xalça, mebel dəsti, mühərrik yağı, qənnadı məhsulları, boya, nar şirəsi sifariş olunanlar arasındadır.

Maraqlı nüanslardan biri isə ondan ibarətdir ki, may ayı ərzində Səudiyyə Ərəbistanı, ABŞ və Hindistandan Azexport.az portalına daxil olan ixrac sifarişlərinin sayı artmışdır. Səudiyyə Ərəbistanından sifarişlər çaya, qənnadı məmulatlarına, avtomobil diaqnostika aparatına və s., ABŞ-dan sifarişçilər təbii bala, fındıq ləpəsinə, nar şirəsinə, bəzəkli şüşə qablara və s., Hindistandan nar şirəsinə, konyaka və s. daxil olub.

Məlumat üçün bildirək ki, Azexport.az portalına 2017-ci ilin yanvar ayında 48 milyon ABŞ dolları, fevral ayında 6.5 milyon ABŞ dolları, mart ayında 27 milyon ABŞ dolları, aprel ayında 29.9 milyon ABŞ dolları, may ayında 19 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub. Ümumilikdə götürdükdə 2017-ci ilin 5 ayı ərzində Azexport.az portalına 45 ölkədən 130 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub.

Azexport.az portalına daxil olan sifarişlər barədə daha dolğun məlumat səhifə 8-12-də təqdim olunan infoqrammalarda verilib.

## 2017-ci ilin may ayında Azexport.az portalından ixrac sifarişi alan mallar




**Qeyd**: *May ayında infoqrammada yer alan məhsullardan əlavə qeyri-neft sektorunda istehsal edilən digər məhsullara da ixrac sifarişi daxil olmuşdur. Xüsusən də ölkə daxilindən Azexport portalına daxil olan sifarişlərdə artım müşahidə olunur. Bu isə onu göstərir ki, Azexport portalı ixracı stimullaşdırmaqla yanaşı, idxalın əvəzlənməsinə də töhfə verməkdədir.*

*Mənbə: Azexport.az*

# Rusiya Federasiyasından Azexport.az portalına ixrac sifarişi daxil olan əsas Azərbaycan məhsulları

2017-ci ilin 5 ayı ərzində Azexport.az portalına ixrac sifarişi daxil olan ölkələrin siyahısına Rusiya Federasiyası başçılıq edir. Ötən müddətdə daxil olan ixrac sifarişlərini təhlil etdikdə aydın olur ki, Rusiyadan qeyri-neft sektoruna aid müxtəlif Azərbaycan məhsullarına - fındıq ləpəsi, konyak, yer kökü, meyvə şirəsi, sarı soğan, şərab, alma, çay, feyxoa cemi, mahlıc, pambıq yağı, kosmetik vasitələr, albalı konsentratı, tibbi tənzif, meyvə tamlı süd, göbələk və s. sifarişlər daxil olub.

Azexport.az portalına daxil olan ixrac sifarişlərinin 15 faizinin bu ölkənin payına düşməsinin əsas səbəblərindən biri də tarixən Azərbaycan məhsullarına Rusiyada tələbatın böyük olmasından qaynaqlanır. Bu isə onu göstərir ki, **Made in Azerbaijan** brendi Rusiyada kifayət qədər müsbət imicə malikdir.




*Mənbə: Azexport.az*

## Ukraynadan Azexport.az portalına ixrac sifarişi daxil olan əsas Azərbaycan məhsulları

2017-ci ilin 5 ayı ərzində Azexport.az portalına daxil olan ixrac sifarişlərinin 10 faizə yaxın hissəsi isə Ukrayna Respublikasının payına düşüb. Ukraynalılar Azərbaycanın nar şirəsinə, konyakına, fasad boyasına, tütününə, şərabına və digər məhsullarına maraq göstəriblər. Ukraynadan daxil olan ixrac sifarişlərini təhlil edəndə aydın olmuşdur ki, bu ölkənin ixracatçı şirkətləri Yaxın Şərqdən toyuq əti, kərə yağı, tibbi tənzif, yataq dəsti, quru süd, toyuq filesi və s. malları üzrə aldıqları ixrac sifarişlərini qarşılamaq üçün Azərbaycan istehsalı olan mallara da müraciət ediblər. Bu isə onu göstərir ki, bir çox Azərbaycan məhsulu artıq rəqabətqabiliyyətlidir və hətta xarici ticarətçilər onu Azərbaycandan alıb 3-cü ölkəyə satmağa maraqlıdırlar.




*Mənbə: Azexport.az*

**Türkiyədən Azexport.az portalına ixrac sifarişi daxil olan əsas Azərbaycan məhsulları**

Türkiyə Respublikası da 2017-ci ilin 5 ayı ərzində Azexport.az portalına daxil olan ixrac sifarişlərində 7 faizlik payla ilk üçlükdə təmsil olunur. Ötən müddətdə Türkiyədən əsasən tütün, mühərrik yağı, şərab, nar şərabı, toyuq əti, pambıq yağı, noxud, qarabaşaq, günəbaxan yağı, quru süd və s. məhsullar sifariş olunub.




*Mənbə: Azexport.az*

## Azexport.az portalına 2017-ci ilin 5 ayı ərzində daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (%)




| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Rusiya | 15.3 | Qazaxıstan | 5.1 | Benin | 3.4 | Pakistan | 2.8 |
| Ukrayna | 9.6 | ABŞ | 5.1 | İran | 3.4 | Misir | 2.3 |
| Türkiyə | 7.3 | İraq | 3.4 | Nigeriya | 2.8 | Toqo | 1.7 |
| Səudiyyə Ərəbistanı | 6.2 | Polşa | 3.4 | Hindistan | 2.8 | Özbəkistan | 1.7 |

***Qeyd:*** *2017-ci ilin aprel ayı ilə müqayisədə may ayında da Azexport portalına ixrac sifarişi daxil olan ölkələrin ilk üçlüyündə heç bir dəyişiklik olmayıb. Rusiya yenə də öz liderliyini qoruyub. Bu isə təbiidir. May ayı ərzində Azərbaycan Respublikasının ixrac statistikasına nəzər salanda da aydın olur ki, 81 milyon ABŞ dolları məbləğindəki ixrac həcmi ilə Rusiya siyahıya liderlik edir. Amma Azexport portalına ixrac sifarişi daxil olan ölkələrin ilk onluğuna baxanda baş verən dəyişikliklər nəzərə çarpır. Belə ki, ilk onluqda Səudiyyə Ərəbistanının və ABŞ-ın mövqeyinin möhkəmləndiyini görürük.*

*Mənbə: Azexport.az*

# Azexport regional e-ticarət platformasına qoşuldu




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı Türkiyəyə səfər edib. Səfər çərçivəsində İstanbul şəhərində Dünya Kiçik və Orta Sahibkarlar Forumu (World SME Forum) ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Əməkdaşlıq memorandum İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı və Dünya Kiçik və Orta Sahibkarlar Forumu rəhbəri Tunc Uyanık imzalayıb.

Qeyd edək ki, Dünya Kiçik və Orta Sahibkarlar Forumunun nümayəndələri bir müddət öncə Bakı şəhərinə səfər edərək, Azexport portalının təcrübəsini öyrəniblər. Bu forum tərəfindən yeni yaradılan KOBİ.Market elektron ticarət portalında Azexport-un təcrübəsi də nəzərə alınıb. Bu gün imzalanan əməkdaşlıq sazişi həm də Azexport portalı ilə KOBİ.Market portalı arasında inteqrasiyaya xidmət edəcək.

Məlumat üçün bildirək ki, Dünya Kiçik və Orta Sahibkarlar Forumu tərəfindən yaradılan KOBİ.Market adlı elektron platforma kiçik və orta sahibkarların elektron ticarətin imkanlarından faydalanmasına, yeni bazarlara çıxmasına və bacarıqlarının artırılmasına xidmət edəcək. Portal ilk mərhələdə Azərbaycan, Gürcüstan və Türkiyəni əhatə edəcək. Kiçik və orta sahibkarlar bu elektron ticarət platformasına inteqrasiya olunaraq elektron ticarət imkanından faydalanacaqlar.

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Türkiyənin Odalar və Borsalar Birliyinin rəhbəri Rifat Hisarcıklıoğlu, Gürcüstanın Ticarət və Sənaye Palatasının rəhbəri Kaxa Bainduraşvili əməkdaşlıq haqqında razılığa gələrək memorandum imzalayıblar.

İmzalanma mərasimində Türkiyə Gömrük və Ticarət naziri Bülənt Tüfekçi və İqtisadiyyat Nazirliyinin müstəşarı İbrahim Şenel də iştirak edib.

Türkiyənin Gömrük və Ticarət naziri Bülənt Tüfekçi bildirib ki, kiçik və orta sahibkarların beynəlxalq müstəvidə rəqabət apara bilməsi üçün və virtual ortamda elektron ticarət zamanı görüşə bilmələri çox önəmlidir.

# “Bir pəncərə” İxraca Dəstək Mərkəzinin təqdimatı oldu




Azərbaycan Respublikasının Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanının icrası ilə bağlı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində fəaliyyət göstərən “Bir pəncərə” İxraca Dəstək Mərkəzi yaradılmışdır. “Bir pəncərə” İxraca Dəstək Mərkəzi ixracla bağlı icazələrin alınması zamanı yarana biləcək hər hansı bir problemi aradan qaldırmağa, dövlət qurumları tərəfindən icazələrin verilməsi prosesində tələb olunan sənədləşmə ilə bağlı təkrarçılığı aradan qaldırmağa, məmurlarının ixracatçıların sənədləşmə prosesinə sərf etdikləri əməklərinə və vaxtlarına qənaət etməyə, xidmətin keyfiyyətini yüksəltməyə və dünya standartları səviyyəsini də üstələməyə, ixracatçıların fasiləsiz informasiya tələbatını ödəməyə xidmət edəcəkdir.

25 may 2017-ci tarixində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində “Bir pəncərə” İxraca Dəstək Mərkəzinin təqdimatı oldu. Təqdimat zamanı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, Azexport portalının nəzdində fəaliyyət göstərəcək “Bir pəncərə” İxraca Dəstək Mərkəzi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verəcək. Beləliklə, daha az resurs sərf etməklə ixrac prosedurlarını daha sürətlə həyata keçirən sahibkarlar “Bir pəncərə” İxraca Dəstək Mərkəzinin imkanlarından yararlanacaqlar.

Tədbirdə Azərbaycan Respublikası Prezident Administrasiyasının sektor müdiri Elxan Mikayılov, İqtisadiyyat Nazirinin müavini Sahil Babayev, Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Səfər Mehdiyev, Kənd Təsərrüfatı Nazirinin müavini Seyfəddin Talıbov, Mədəniyyət və Turizm Nazirinin müavini Sevda Məmmədəliyeva, Ekologiya və Təbii Sərvətlər Nazirinin müavini Rauf Hacıyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Cənubi Qafqaz üzrə regional meneceri Jan Van Bilsen, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxışlar ediblər.

Qeyd edək ki, bu təqdimatdan sonra İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində fəaliyyət göstərən “Bir Pəncərə” İxraca Dəstək Mərkəzində müntəzəm olaraq ixracatçılarla görüşlər keçirilir. Bu görüşlərin keçirilməsində məqsəd, “Bir Pəncərə”nin xidmətləri barədə ixracatçıları məlumatlandırmaq, həmçinin ixrac

prosedurlarının sadələşdirilməsi sahəsində aparılan islahatlarla sahibkarları tanış etməkdən ibarətdir.

Görüşlər zamanı “Bir Pəncərə” İxraca Dəstək Mərkəzində sahibkarlara xidmət göstərən beş dövlət qurumunun nümayəndələri ixracata tələb olunan sənədləşmə işləri ilə bağlı müvafiq prezentasiyalar təqdim ediblər. Eyni zamanda ixrac rəsmiləşdirilməsi üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin onlayn xidmətləri də sahibkarlara nümayiş olunub.

Məlumat üçün bildirək ki, “Bir Pəncərə” İxraca Dəstək Mərkəzində “bir pəncərə” prinsipi əsasında aşağıda qeyd edilən sertifikatların, şəhadətnamənin və razılığın verilməsi təmin edilmişdir:

- ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala beynəlxalq baytarlıq sertifikatının verilməsi;
- bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi;
- Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı üçün keyfiyyət sertifikatının verilməsi;
- malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi;
- kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün icazənin (sertifikatın) verilməsi;
- mədəni sərvətlərin ixracı üçün mədəni sərvətin mühafizə şəhadətnaməsinin verilməsi;
- dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və videomaterialların, malların (məmulatların) və dini məzmunlu başqa məlumat materiallarının ixracına razılıq verilməsi.

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi Bakı şəhəri Landau küçəsi 16 ünvanda – İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 1-ci mərtəbəsində yerləşir. İxrac fəaliyyəti ilə məşğul olan həm hüquqi, həm də fiziki şəxslər əlavə hər hansı bir xidmət haqqı ödəmədən “Bir Pəncərə”nin xidmətlərindən faydalana bilərlər.

Qeyd edək ki, “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi “Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 22 fevral 2017-ci il tarixli Fərmanı əsasında yaradılıb.



# “Bir pəncərə” İxraca Dəstək Mərkəzində mənşə, keyfiyyət və fitosanitar sertifikatlarının verilməsi proseduru




Bildiyimiz kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 aprel 2017-ci il tarixli 134 saylı qərarı ilə “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişikliklər edilib. Bu dəyişiklərdən sonra Azərbaycandan Avropa İttifaqı ölkələrinə ixrac edilən yeyinti məhsulları üçün keyfiyyət sertifikatı tələb edilməyəcək. Eyni zamanda dəyişikliyə əsasən ixrac zamanı mənşə (*Ancaq mallar gömrük ərazisinə idxal edildikdə isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş “Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları”nın 10.1-ci bəndində göstərilən hallarda mənşə ölkəsini təsdiq edən sertifikat tələb edilə bilər.*) və fitosanitar sertifikatı da tələb olunmayacaq.

Amma burada onu da nəzərə alaq ki, Azərbaycan Respublikasının gömrük əməkdaşları tərəfindən qeyd edilən sertifikatlar tələb edilməsə də mal ixrac edilən ölkə yükü bu sertifikatlarsız qəbul etməyə bilər. Onun üçün ixracatçılar sərhədə hər hansı bir problemlə üzləşməmək üçün öncədən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində fəaliyyət göstərən “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edərək qeyd edilən sertifikatları ala bilər. Bunun üçün aşağıda göstərilən sənədlər tələb olunacaq.



# "Bir pəncərə" İxraca Dəstək Mərkəzində malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi proseduru

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində fəaliyyət göstərən "Bir pəncərə" İxraca Dəstək Mərkəzində malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi təmin olunub. Hər bir hüquqi və fiziki şəxs "Bir pəncərə" İxraca Dəstək Mərkəzinə müraciət edərək malın mənşə ölkəsini təsdiq edən sertifikatı ala bilər. Sertifikatı almaq üçün "bir pəncərə" prinsipi əsasında aşağıdakı sənədlər tələb olunacaq:

**a) Hüquqi şəxslər üçün**

1.Ərizə

2.Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti

3.Vergi orqanları tərəfindən uçota alınması haqqında müvafiq sənədin surəti

4.Hüquqi şəxsin rəhbərinin şəxsiyyət vəsiqəsinin surəti

5.Hüquqi şəxsin rəhbərinin vəzifəyə təyin edilməsi haqqında əmr.

6.Sifarişçi ilə alıcı arasında bağlanmış müqavilənin surəti

7.Qaimə-faktura (invoys)

8.İxrac olunan məhsulun ilkin xammalının yarimfabrikatın yaxud məhsulların hazırlanmasında iştirak edən digər materialların alınmasını təsdiq edən müqavilə və ya başqa təsdiqedici sənədlər

9.İxrac olunan məhsulun ilkin xammalı, yarımfabrikatı, yaxud məhsulların hazırlanmasında iştirak edən digər materiallar xarici ölkə mənşəli olduğu təqdirdə, emal nəticəsində malın xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası (XİF ƏN) üzrə mövqeyində ilk dörd rəqəmdən ən azı birinin səviyyəsində dəyişmənin olması və ya advalor pay qaydası tətbiq olunduğu hallarda istifadə olunmuş materialların dəyərinin göndərilən malın qiymətinin faizlə müəyyən edilmiş həddə çatması ilə əlaqədar sənədlər

**b) Fiziki şəxslər üçün**

1.Ərizə

2.Fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamə

3.Sifarişçi (yük göndərən) ilə alıcı (yük alan) arasında bağlanılmış müqavilə (olduğu halda)

4.Qaimə-faktura

5.İxrac olunan məhsulun ilkin xammalının, yarımfabrikatın yaxud məhsulların hazırlanmasında iştirak edən digər materialların alınmasını təsdiq edən müqavilə və ya başqa təsdiqedici sənədlər

**Dövlət rüsumu**

Mənşə sertifikatının alınması üçün dövlət rüsumu 20 AZN təşkil edir. Malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertiza xidmətləri Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2011-ci il 24 noyabr tarixli 09 nömrəli Qərarı ilə müəyyən edilmişdir (həmin tariflər təyin edilən göstəricilərin növü, malın çeşidi, çəkisi və digər amillərdən asılı olaraq dəyişir).

***Qeyd:*** *Mənşə sertifikatının istifadə müddəti 1(bir) il təşkil edir.*

**Sertifikatın verilməsi müddəti.**

3 iş gün ərzində sertifikatın verilməsi ilə bağlı müvafiq qərar qəbul olunur.

Daha ətraflı məlumatı **"Bir pəncərə" İxraca Dəstək Mərkəzindən** ala bilərsiniz.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi, 16. AZ 1073.

# "Bir pəncərə" İxraca Dəstək Mərkəzində Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı üçün keyfiyyət sertifikatının verilməsi proseduru

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində fəaliyyət göstərən "Bir pəncərə" İxraca Dəstək Mərkəzində Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı üçün keyfiyyət sertifikatının verilməsi təmin olunub. Hər bir hüquqi və fiziki şəxs "Bir pəncərə" İxraca Dəstək Mərkəzinə müraciət edərək kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün icazə (sertifikat) ala bilər. Sertifikatı almaq üçün "bir pəncərə" prinsipi əsasında aşağıdakı sənədlər tələb olunacaq:

**a) Hüquqi şəxslər üçün**

1.Ərizə

2.Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti

3.Vergi orqanları tərəfindən uçota alınması haqqında müvafiq sənədin surəti

4.Hüquqi şəxsin rəhbərinin şəxsiyyət vəsiqəsinin surəti

5.Alqı-satqı müqaviləsi (kontraktı)

6. İxrac ediləcək məhsula dair hesab-faktura (invoys)

7.Mənşə sertifikatı

8.İxrac olunan məhsulun növündən asılı olaraq mövcud qanunvericiliyə uyğun fitosanitar sertifikatı, baytarlıq şəhadətnaməsi, ovlanmış heyvanlara müvafiq orqanın icazəsi və ovun qadağan olunmamış müddətdə ovlanması və müəssisəyə daxil olduğu haqda sənəd

**b) Fiziki şəxslər üçün**

1.Ərizə

2.Sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti

3.Sifarişçi ilə alıcı arasında bağlanmış müqavilənin surəti

4. İxrac ediləcək məhsula dair hesab-faktura (invoys)

5. Mənşə sertifikatı

6.İxrac olunan məhsulun növündən asılı olaraq mövcud qanunvericiliyə uyğun fitosanitar sertifikatı, baytarlıq şəhadətnaməsi, ovlanmış heyvanlara müvafiq orqanın icazəsi və ovun qadağan olunmamış müddətdə ovlanması və müəssisəyə daxil olduğu haqda sənəd

Əlavə sənəd olaraq uyğunluq, gigiyenik sertifikat tələb oluna bilər.

**Dövlət rüsumu**

Keyfiyyət sertifikatının alınması üçün dövlət rüsumu 20 AZN təşkil edir.

**Sertifikatın verilməsi müddəti.**

3 iş gün ərzində sertifikatın verilməsi ilə bağlı müvafiq qərar qəbul olunur.

Daha ətraflı məlumatı **"Bir pəncərə" İxraca Dəstək Mərkəzindən** ala bilərsiniz.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi, 16. AZ 1073.



# "Bir pəncərə" İxraca Dəstək Mərkəzində bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi proseduru

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində fəaliyyət göstərən "Bir pəncərə" İxraca Dəstək Mərkəzində bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi təmin olunub. Hər bir hüquqi və fiziki şəxs "Bir pəncərə" İxraca Dəstək Mərkəzinə müraciət edərək bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı ala bilər. Sertifikatı almaq üçün "bir pəncərə" prinsipi əsasında aşağıdakı sənədlər tələb olunacaq:

1)Fiziki və ya Hüquqi şəxsin yazılı ərizəsi və ya müraciəti (Ərizə) :
Fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar
Hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, hüquqi ünvanı

2)VÖEN-in surəti

3)Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti

4)fitosanitar sertifikatının verilməsi üçün xidmət haqqının ödənilməsi barədə qəbz;

5)fitosanitar sertifikatının verilməsi nəzərdə tutulan bitki və bitkiçilik məhsullarının (yüklərin) təsviri:

6)ixrac olunan bitki və bitkiçilik məhsullarının adı, mənşəyi və miqdarı (hər növ üzrə təmiz və qablaşdırılmış çəki);

-Yükün qablaşdırma forması (taxta, kisə və.s)

-idxalçı ölkənin adı və yükün daxilolma ünvanı;

-məhsulun yüklənmə yeri və tarixi, nəqliyyat vasitəsinin nömrəsi;

-yük ixrac edilən sərhəd buraxılış məntəqəsinin adı.

**Əlavə olaraq bu sənədlər tələb oluna bilər:**

-Əgər məhsul və ya qablaşdırma məhsulu əvvəlcədən zərərsizləşdirilibsə (fumiqasiya edilibsə) ona dair sənədlər

-Əgər məhsul əvvəlcədən analiz olunubsa, analizə dair laborator sənədləri və ya Daxili Karantin Sertifikatı

-Əgər məhsul nə vaxtsa ölkəyə idxal olunub, hazırda ixrac olunursa həmin məhsulun idxal olunan ölkədən verilmiş Fitosanitar sertifikatı

**Dövlət rüsumu**

Bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi üçün ödənilən dövlət rüsumu 1 AZN-dir. Bundan əlavə ekspertiza xərcləri ödənilir.

**Sertifikatın verilməsi müddəti.**

Qeyd edək ki, ərizəçi yük partiyasını yola salmazdan 5 gün əvvəlcədən müraciət etməlidir. Onun ərizəsi qeydə alındığı gündən başlayaraq 3 gün müddətində baxılır.

Daha ətraflı məlumatı "**Bir pəncərə" İxraca Dəstək Mərkəzindən** ala bilərsiniz.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi, 16. AZ 1073.



# İXRAC İCMALI




## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

## Bizimlə əlaqə

(+994)12 5213318

info@ereforms.org

Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi 16

/iqtisadiislahat